# Heykəltəraş dünyası

**Arif Qazıyevin yaradıcılığında Vətənimizin ağrılı günlərini əks etdirən emosional səpkili əsərlər. Arif Qazıyevin yaradıcılığı, bədii-estetik görüşləri XX əsrin 60-70-ci illərində yaranmış abu-hava ilə yoğrulmuş, etnik xüsusiyyətləri, milli-mental dəyərləri, özünü qabarıq şəkildə göstərmişdir.**

Arif Qazıyev yaşadığı quruluşun təzadlarını duymuş sənətkar kimi bunu yaradıcılığında da büruzə vermişdir. 80-cı illərdə yaratdığı " Dəhşət " heykəl kompozisiyası öz dramatizmi ilə insanı təsirləndirən əsərlərdən biridir. Heykəltəraş sanki bir neçə il sonra SSRİ məkanında baş verəcək qanlı toqquşmaları bir-birini məhv etməyə çalışan iki kişi obrazında təsvir etmişdir. Buradakı güclü ekspressiya, əli ilə digərinin ağzını tutaraq onun səsini boğmağa çalışmağa cəhd edən digər kişi obrazı vasitəsilə bu fikirləri təsvir etmişdir. Diktatura, avtoritar-totalitar rejimlərin xalqı məhz bu cür zor gücünə özünə tabe etməsi uzaqgörən heykəltəraş Arif Qazıyevin yaradıcılığının zirvəsi hesab oluna bilər. Şübhəsizki, Respublikamız suverenlik qazanandan sonra bu əsər tamaşaçılara təqdim edilmişdir. "İntizar" və "Qaçqın Ana" əsərlərində ana obrazı timsalında elin-



dən-obasından didərgin düşmüş qaçqın anaların ümumiləşdirilmiş obrazını yaratmışdır. Heykəltəraş burada Vətənin ana obrazı vasitəsilə keşməkeşli günlərinin ağrıacısını üz cizgiləri, gözlərdəki ifadəli, nigaran baxışları ilə ifadə etmişdir. Ananın narahat əyləşmiş pozada təsviri, intizarında olduğu doğma elinə-obasına həsrətli və düşüncəli baxışları, yollara ümidlərlə dikilmiş düşüncələri aydın şəkildə duyulur. "Fəryad" əsərində Allaha yalvarış, baş verən hadisələrdən dəhşətə gəlmiş insanın harayı əks olunmuşdur. Bu əsərdə kişi obrazı vasitəsilə əllərini səmaya qaldırmış üsyanı duyulmaqdadır. "Oxatanlar" heykəl kompozisiyasında isə xalqının vahid düşmənə qarşı birləşməsi, güclü sarsılmaz biləklər vasitəsilə igidlərimizin ümumiləşdirilmiş fəlsəfi məzmunlu obrazları insanlara güclü vətənpərvərlik hissi aşılamaqdadır. Arif Qazıyevin yaradıcılığında "Kamanın Naləsi" heykəl kompozisiyası öz məzmununa görə olduqca maraqlıdır. Ağrılı-acılı günlərimizi kamanın incə telləri vasitəsilə inlədən heykəltəraş, daşlaşmış melodiya vasitəsilə ürəklərdə yanğı oyadan ah-nalələri ifadə etmişdir. Arif Qazıyevin zəngin yaradıcılığı bu cür əsərlərlə zəngindir.

Xalqımızın başına gətirilən müsibətlərə biganə qalmayan heykəltəraş öz yaradıcılığı vasitəsilə bunu bir daha göstərmişdir. Hadisələrə vaxtında reaksiya verməklə heykəltəraş Arif Qazıyev, Azərbaycan xalqının bu çətinliklərdən qurtulacağı, azad, firavan gələcəyə nail olacağını təsdiqləmişdir. Qeyd olunan bütün bu işlərin fonunda biz də Onun bir daha böyük bir sənətkar olduğunu görürük.

**Şəhla Zeynalova**